UNEC

# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:**
**“Biznesin və logistika” kafedrasının müdiri: i.e.n.dos., M.Ə.ƏLİYEV**

**10 fevral 2025-cü il**

## “Layihələrin idarə edilməsi” fənni üzrə
## İŞÇİ TƏDRIS PROQRAMI
## (Sillabus)

**I. Fənn haqqında məlumat**

| | |
|---|---|
| **Fənnin kodu:** | **00515** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2024/2025** |
| **Tədris semestri:** | **yaz** |
| **Fakültə:** | **Biznes və menecment** |
| **Qrup:** | **550-1, 550-2, 550-3, 550-4, 550-5.** |
| **Tədris yükü:** | **45 saat (mühazirə/məşğələ -30/15)** |
| **Kredit sayı:** | **3 (üç)** |
| **Kafedra:** | **Biznesin idarə edilməsi** |

**II. Müəllim haqqında məlumat**



| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Nəsibov Vüqar (Dosent, i.e.f.d.)** |
| **E-mail ünvanı:** | **vuqar.nasibov@bk.ru** |
| **İş telefonu:** | **(012) 440-33-67** |

Bu sillabus "Menecment" kafedrasının dosenti, i.e.f.d. Nəsibov Vüqar Nizami oğlu tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn Biznes səviyyəsində işgüzar layihələrin idarə edilməsi sistemini öyrənir. Postindustrial dövrün qeyri-müəyyənliklərinə, gözləniməyən dəyişikliklərinə adekvat cavabın verilməsi menecerin təşkilatçılıq və uzaqgörənlik məharətindən asılıdır.

Qloballaşma iqtisadi, sosial və digər prosesləri ildırım sürəti ilə yaymaqla müxtəlif ölkə iqtisadiyyatlarını daha sıx şəkildə bir-birinə bağlayır. Belə şəraitdə işgüzar təşkilatın fəaliyyət strategiyasının seçilməsi menecerin səriştəli, analitik təhlil etmə qabiliyyətli və kommunikabelli olmasını tələb edir.

«Layihələrin idarə edilməsi» fənni məhz bu problemlərin həlli yollarını öyrənir.

«Layihələrin idarə edilməsi» layihələrin idarə edilməsinin nəzəri - metodoloji əsaslarını, planlaşdırmanın ümumi vəzifələrini və layihə menecmentində komanda işinin səmərəli təşkili məsələlərini, komanda idarəçilik üslublarını araşdırır. Layihənin biznes-planının işlənilməsini, layihə menecmentində beynəlxalq yanaşmanın praktiki əhəmiyyətini, layihə menecmentində risklərin yeri və rolunu, menecerin etik kodeksini tədqiq edir.

## IV. Fənnin məqsədi və vəzifələri:

Məlumdur ki, müasir idarəetmənin əsas tələbatı və onun səmərəliliyinin əsas amili yüksək peşakarlıqdır. Bu peşəkarlıq isə mütəxəssisin hazırlıq səviyyəsindən, gələcəyi görə bilmək qabiliyyətindən, baş verə biləcək hadisələri vaxtında hiss edərək problemləri müvəffəqiyyətlə həll edə bilmək bacarığından asılıdır. Məhz bu səbəbdən də müasir mərhələdə, menecerlərin hazırlanması prosesində xüsusi bir fənnin, "Layihələrin idarə edilməsi" fənninin tədris edilməsinə ehtiyac yaranmışdır. Layihə menecmenti fənninin tədrisinin başlıca məqsədi tələbələrdə idarəçilik təfəkkürünü formalaşdırmaq, inkişaf etdirməkdir layihələrin düzgün idarə edilməsi sahəsində bilik verməkdir.

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və

məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## V. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Layihələrin idarə edilməsinin mahiyyətini və əsas xüsusiyyətlərini;
- Layihə anlayışının mahiyyətini;
- Layihələrin vaxt üzrə planlaşdırılmasının iqtiqamət və metodlarını;
- Layihələrin xərclər üzrə planlaşdırılmasının iqtiqamət və metodlarını;
- Layihələrin keyfiyyət üzrə planlaşdırılmasının iqtiqamət və metodlarını;
- Layihələrin idarə edilməsinin əsas və əlavə elementlərini;
- Layihə həyata keçirəcək müəssisənin fəaliyyətini analiz etməyin iqtiqamət və metodlarını;
- Sertifikatlaşdırma proqramının mahiyyətini .

**Bacarmalıdırlar**:

- Layihə anlayışının mahiyyətini və onların həyata keçirilməsi mərhələlərini ardıcıl yerinə yetirməyi;
- Layihələrin vaxt üzrə planlaşdırılmasını;
- Layihələrin xərclər üzrə planlaşdırılmasını;
- Layihələrin keyfiyyət üzrə planlaşdırılmasını;
- Layihələrin idarə edilməsinin əsas və əlavə elementlərini müəyyən etməyi;
- Layihə həyata keçirəcək müəssisənin fəaliyyətini analiz etməyi;
- Biznes planları tərtib etməyi.

## VI. Kursun proqramı

Proqram 15 mühazirə, 15 seminar olmaqla 30 saata əsaslanır. Proqram mühazirələr, müzakirələr, tapşırıqlar və məşqlər, qrup işi, praktik məşğələlər və iş müzakirəsini əhatə edir.

## VII. Fənnin mühazirə mövzuları

Fənn 6 bölmədən və 22 mühazirə mövzusundan ibarətdir. 14 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla), 1 mövzuya 5 saat (3 saat mühazirə və 2 saat seminar olmaqla), 7 mövzunun hər birinə isə 2 saat (2 saat mühazirə olmaqla) vaxt ayrılır.

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

**I Bölmə: Layihə menecmenti: nəzəri əsaslar.**

1. Layihələrin idarə edilməsinin nəzəri metodoloji əsasları.
2. Layihələrin idarə edilməsinin əsas və əlavə elementləri.

**II Bölmə: Layihə menecmentində planlaşdırma və təhlil.**

3. Layihə menecmentində planlaşdırmanın ümumi vəzifələri.
4. Layihə menecmenti fənnində analiz məsələsi.

**III Bölmə: Layihə menecmentində komanda işinin təşkili.**

5. Layihələrin işlənilməsində qərarların qəbulu üsulları.
6. Layihə menecmentində komanda işinin səmərəli təşkili.
7. Komanda idarəçilik üslubları.
8. Layihənin biznes-planının işlənilməsi.

**IV Bölmə: Layihə menecmentində beynəlxalq yanaşma.**

9. Layihə menecmentində beynəlxalq yanaşmanın praktiki əhəmiyyəti.
10. Layihə menecmentində risklərin yeri və rolu.
11. Layihə menecerinin etik kodeksi.

**V Bölmə: Müxtəlif tipli layihələrin idarə edilməsi mexanizmləri.**

12. Sosial layihələrin idarə edilməsi mexanizmi.
13. Kreativ layihələrin idarə edilməsi
14. İnnovasiya layihələrinin qiymətləndirilməsi mexanizmi.
15. Layihə menecmentində rəqabət və qiymətqoymanın iqtisadi əhəmiyyəti.

## VIII. Prerekvizitlər

Yoxdur.

## IX. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və

məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**X. Fənnin mühazirə mətnləri ilə tanışlıq**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda universitetin veb saytındakı (**unec.edu.az**) tələbə kabinetində yerləşdirilir.

**XI. Tələb olunan dərsliklər və dərs vəsaitləri**

**Əsas ədəbiyyat:**


1. Harold Kerzner. STRATEGING PLANNING FOR PROJECTS MANAGEMENT USING A PROJECT MANAGEMENT MATURITY MODEL. 2010.
2. Том Демарко, Тимоти Листер. Человеческий фактор: успешные проекты и команды. 2015.
3. Вадим Богданов. Управление проектами. Москва, 2012
4. БЫКОВСКИЙ В. В. УПРАВЛЕНИЕ ИННОВАЦИОННЫМИ ПРОЕКТАМИ И ПРОГРАММАМИ. Тамбов 2011.
5. Kim Heldman. Project Management. 2005.
6. Алексей Просницкий. Управление проектами в Microsoft Project. 2011.
7. Г. Л, Ципес. Менеджмент проектов. 2006.
8. М. Л. Разу. Управление проектом. I və II cild. 2006.
9. Clifford F. Gray, Erik W. Larson. I və II cild. Project Management. 2013.
10. Joseph W. Weiss, Robert K. Wysocki. Projekt Management. 2017.
11. Dennis Lock. The Esentials of Projekt Management 2004.
12. Gerd Dithelm. Projekt Management. I və II cild. 2014.
13. Stanley E. Portny. Project Management For Dummies. 2011.
14. Mesiha Saat Ersoy Proje Yönetimi. Ankara -2010.
15. A.H.Tağıyev, Q.Ə,Səfərov "İnnovasiya layihələrinin menecmenti". Bakı-2013
16. F.B.Əliyev İnvestisiya Layihələrinin təhlili və dəyərləndirilməsi. Bakı -2003.
17. Aşıkoğlu Rıza-Büker Semih, Yatırım və proje değerlenmesi. Eskişehir-1998.


**Əlavə ədəbiyyat:**


1. Məmmədov X., Mirzəyev S. Marketinqin əsasları. Bakı -2001.
2. Məmmədov Z., Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı – 2001.
3. Şəkərəliyev A. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı - 1999.
4. Hüseynov T. Müəssisənin iqtisadiyyatı. Bakı-2005.

5. Uğurlu biznesə gedən yol, Sahibkarların məlumat kitabçası ,BMT İnkişaf Proqramı, Bakı -2000.
6. Ergin Hüseyn Stratejik Yönetim Muhasebesi. Kütahya -1997.
7. Богатин Ю.В., Швандар Л.А. Инвестиционный анализ Москва -2000.

| S/s | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Layihələrin idarə edilməsinin nəzəri metodoloji əsasları | Layihə və menecment anlayışı. Layihə və layihələrin idarə edilməsi. Layihələrin idarə edilməsinin mahiyyəti və məzmunu. Layihələrin idarə edilməsinin məqsədi. Layihələrin idarə edilməsinin obyekti. Layihələrin idarə edilməsinin funksiyaları. "Layihələrin İdarə Edilməsi Azərbaycan Assosiasiyası"nın fəaliyyət istiqamətləri. Layihənin əsas anlayışları. Layihənin idarə edilməsi metodologiyası. Layihəni xarakterizə edən əsas xüsusiyyətlər. Layihənin əsas mərhələləri. Layihənin tərkibinin idarə edilməsi. Layihənin idarə edilməsi metodları. Layihənin uğurunun əsas hərəkətverici qüvvəsi. Layihədə işlərin vaxta görə bölgüsü üçün Qantt diaqramı. | М. Л. Разу. Fəsil I, Fəsil II |
| 2 | Layihələrin idarə edilməsinin əsas və əlavə elementləri | Layihələrin icrasının idarə edilməsinin mahiyyəti və məzmunu. Layihələrin icrasının idarə edilməsi prosesləri. Layihələrin başlanmasının və sona yetməsinin əsas istiqamətləri. Layihələrin idarə edilməsində danışıqların predmeti və danışıqların aparılması mexanizmi. Layihələrdə dəyişikliklərin idarə edilməsi. Layihələrin ekspertizadan keçirilməsi üsulları. Layihələrin təşkilati strukturunda informasiyaların idarə edilməsinin səviyyələri. Layihələrdə dəyişikliklərin idarə edilməsi. Layihələrin idarə edilməsinin inkişaf mərhələləri. Vaxt menecmentinin əsas məqsədi. İclasların təşkili, iclaslardan istifadə. İntervü prosesi. | Harold Kerzner. Fəsil V, fəsil VI |
| 3 | Layihə menecmentin də planlaşdırmanın ümumi vəzifələri. | Planlaşdırmanın ümumi vəzifələri. İşlərin bölünməsi strukturunun yaradılması. Vaxtın planlaşdırılması. Xərclərin planlaşdırılması. Layihənin reallaşması. Layihənin həyata keçirilməsi gedişinin monitorinqi və nəzarəti. Layihənin planlaşdırılması. Layihələndirmənin mahiyyəti. Planlaşdırma prosesi. İşlərin bölüşdürülməsi strukturunun parametrləri. Planlaşdırma səviyyələrinin qarşılıqlı əlaqələri. İşlərin bölüşdürülməsi strukturunun işlənilməsi prosesi. İşlərin bölüşdürülməsi strukturunun əsasında layihə üzrə təşkili icraçılar strukturu və ya təşkili struktur sxemi. Vaxtın planlaşdırılmasının məqsədi. Layihənin qrafik təqdimatının metodları. Qant və şəbəkə qrafiki. | Kim Heldman. Project Management. 2005. Fəsil II. |
| 4 | Layihə menecmen-ti fənnində analiz məsələsi. | Müəssisənin sahədə vəziyyətinin təhlili. Layihənin kommersiya cəhətdən yerinə yetirilə bilən olmasının təhlili. Layihənin texniki təhlili. Layihənin maliyyə təhlili. İnnovasiya layihələrin iqtisadi təhlili. İnstitusional təhlil. Layihənin işlənilməsi və təhlilinin ilkin mərhələsi. Müəssisənin sahədə yetkinlik səviyyəsi. Marketinq təhlili prosesi. Marketinq planı layihənin tərkib hissəsi kimi. Layihələrin texniki təhlilinə aid olan məsələlər.Layihənin texniki təhlilinin həyata keçirilməsi prosesi. İnvestisiya layihəsinin maliyyə bölməsinin yerinə yetirdiyi ardıcıllıqlar. Layihənin iqtisadi cəhətdən səmərəli olması və cəlbedici olmasının əsaslandırılması ardıcıllıqları. Layihənin iqtisadi səmərəliliyi. | Clifford F. Gray. 1-ci cild. Fəsil IV, fəsil VI. |
| 5 | Layihələrin işlənilmə- | Qərarların qəbulunun ümumi əsasları.Layihələrin işlənilməsində qərarların qəbulu üsulları. Funksional dəyər təhlili üsulu. Qərarların | Том Демарко, |

| | | | |
|---|---|---|---|
| | sində qərarların qəbulu üsulları. | morfoloji təhlili və sintezi. Layihələndirməyə sistem-texniki yanaşma. Biznes proseslərinin injinirinqi və reinjinirinqi. İstehlakçıların tədqiqi. Metcettin fundamental metodu. Sərhədlərin axtarışı. Evristik üsullar metodu. Kumulyator Peyc strategiyası. Problem strukturunun tədqiqi metodları. Strategiyanın dəyişdirilməsi üsulları. Sistem texnoloji müdaxilə. Layihələndirmə prosesinin avtomatlaşdırılması sistemi. Motivləşdirmə üzrə qərarların qəbulu. İdarəetmə qərarının hazırlanması fazası. Qərarın qəbul edilməsi üçün informasiyanın yığılması və təhlili mərhələsi. | Тимоти Листер.Fəsil III, fəsil IV |
| 6 | Layihə menecmentində komanda işinin səmərəli təşkili. | Komandada sinergiya effektinin formalaşdırılması. Layihə komandasında liderlik. Liderin hakimiyyət mexanizminə nəzarəti. Komanda üzvlərinin seçilməsi, rolların bölüşdürülməsi, funksional vəzifələr. İdarə səviyyələrinin insanlarla tutulması. Real qaydada- qanunun yaradılması. Liderliyin saxlanılması. Məsuliyyətin həvalə edilməsi. İdarə komandalarının tipləri. Layihə komandasının mahiyyəti.Sinergetik effekt anlayışı. Sinergetik effektin əsas amilləri. Komanda üzvlərinin enerji rolları. Maliyyənin idarə edilməsi. Insanların idarə edilməsinin əsas səviyyələri. formal qayda-qanunların səmərəliliyi. Intizamsızlıq, qaydasızlıq və qayda. Melton modelləri. | Clifford F. Gray 2-ci cild. Fəsil X |
| 7 | Komanda idarəçilik üslubları. | İnsanların tipoloji xüsusiyyətləri. Komanda üzvlərinin motivləşdirilməsi. Komandada əlaqəli hərəkətlərin inkişaf etdirilməsi. Komandanın idarəçilik üslubları. Layihənin inkişaf fazaları. Səmərəli işləyən komandanın meyarları. İdarəçilik formalaşması mərhələlərinin idarə edilməsi. İnsanın xarici mühit və özü ilə qarşılıqlı hərəkət üslubları. Üslubların ümumi xarakteristikası. Reprezentativ sistemlərin enerji –informasiya ünsiyyət üslubları ilə əlaqəsi. Komandanın zəif və güclü tərəfləri. layihə məqsədinin yerinə yetirilməsi. Kontaktların genişləndirilməsi. Menecerin nüfuzu və statusunun yüksəldilməsi. Karyeranın böyümə imkanı. İdarəçilik komandasının bir yerə asan yığışması. Komanda daxilində informasiyanın çətinliksiz və təhrif olunmadan ötürülməsi. | Вадим Богданов. Fəsil VII Stanley E. Portny.Fəsil XI |
| 8 | Layihənin biznes-planının işlənilməsi. | Layihənin biznes-planının mahiyyəti və məzmunu. Biznes planın tərtib edilməsinə qoyulan tələblər. Layihələrin idarə edilməsində biznes-planın funksiyaları. Layihələrin idarə edilməsində biznes-planın əsas bölmələri. Layihələrin idarə edilməsində biznes-planın tərtibi metodları. Layihənin idarə edilməsində biznes-planın həyata keçirilməsi mərhələləri. Layihələrin idarə edilməsində biznes-planın əhəmiyyəti.Biznes-planın əsas məq-sədi.Biznes-planın əsas xüsusiyyətləri. Layihənin müvəffəqiyyət meyarı. Layihə işlərinin ierarxik strukturu layihənin qaydaya salınması və məlumat mübadiləsinin təşkili üçün əsas vasitə kimi. | Joseph W. Weiss, Robert K. Wysocki. Fəsil III. |
| 9 | Layihə menecmentində beynəlxalq yanaşmanın praktiki əhəmiyyəti. | Layihələrin idarə edilməsi beynəlxalq assosasiyası haqqında ümumi məlumat və sertifikatlaşdırma proqramının tələbləri və konseptual əsasları. IPMA-nın dörddərəcəli sertifikatlaşdırma sistemi. İBC-nin ümumi strukturu və prinsipləri. Sertifikatlaşdırma proqramının təşkili və idarə edilməsi. Beynəlxalq əməkdaşlıq.IBC-nin sistemindən NBC sisteminə keçid. IPMA-nın icraçı direktoru. Milli sertifikatlaşdırma qurumu sertifikat alan namizədin, asessorların və sertifikatlaşdırma qurumunun heyətinin sənədlərini hazırlayır və bu məlumatların məxfiliyi.Sertifikatlaşdırma və ixtisaslaşdırma prosesləri. Mürəkkəb layihələr və onlarınidarə edilməsi. Ser-tifikatlaşdırma proqramının təşkili və idarə edilməsi. | М. Л. Разу.Fəsil XIV. |
| 10 | Layihə | Layihə risklərinin təsnifatı. Risklərə nəzarət. Layihələrin idarə | Алексей |

| | | | |
|---|---|---|---|
| | menecmen-tində risklərin yeri və rolu. | edilməsində risk amilinin əhəmiyyəti. Layihələrin idarə edilməsində risk növlərinin yeri və rolu. Layihələrin maliyyələşdirilməsi zamanı baş verən risklərin qiymətləndirilməsi mexanizmi. Layihə risklərinin idarə edilməsi mərhələləri. Layihələrin idarə edilməsində riskin azaldılmasının əsas metodları.Risklərin idarəetmə komponenetləri. Risklərin idarə edilməsinin planlaşdırılması. Risklərin müəyyənləşdirilməsi. Risklərin keyfiyyət təhlili. Risklərin kəmiyyətcə təhlili. Risklərə reaksiyanın planlaşdırılması. Monitorinq və risklərə nəzarət. Risklərin idarə edilməsi üsulları. Risklərin idarə olunmasının təşkilinin səmərəliliyi. | Проскицкий . Fəsil I, fəsil III. |
| 11 | Layihə meneceri-nin etik kodeksi. | Layihənin təşkil edilməsi. Layihə menecerinin etik kodeksi. Layihə rəhbərləri və menecerlərin kompetensiyası üzrə milli tələblər.Namizədin şəxsi keyfiyyətləri və onun qiymətləndirmə meyarı. Layihə rəhbəri və menecerlərinin kompetensiyası üzrə beynəlxalq tələblər. IBC bölmələri. Layihələrin idarə edilməsi prosesində peşəkar menecer. Layihənin idarə edilməsinə cəlb olunmuş heyətin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi müəyyən parametrləri. Layihələrin idarə edilməsi sahəsində peşəkar menecer layihə sahibinə və sifarişçiyə münasibəti. Layihələrin idarə edilməsi sahəsində peşəkar menecer cəmiyyətə münasibəti. Layihələrin idarə edilməsi üzrə mütəxəssislərin (layihə menecerlərinin) peşəkarlıq səviyyələrinin qiymətləndirilməsi. | Joseph W. Weiss, Robert K. Wysocki. Fəsil VIII. |
| 12 | Sosial layihələrin idarə edilmə-si mexanizmi. | Sosial layihələrin idarə edilməsinin mahiyyəti və məzmunu. Sosial layihələrin idarə edilməsinin prinsipləri. Sosial layihələrin idarə edilməsinin üsulları. Sosial layihələrin idarə edilməsində planlaşdırmanın yeri və rolu. Sosial layihələrin fəaliyyət mexanizmi. Sosial layihə anlayışı. Sosial layihənin planlaşdırılması.Sosial layihənin mahiyyəti. Sosial layihənin tərkib elementləri.Titul vərəqi. Titul vərəqinə daxil olan bəndlər. Sosial layihənin idarəetməsinin əsasları. Sosial layihənin düzgün idarə olunması. Sosial layihənin idarə olunma prinsipləri. Layihənin həyata keçirilməsi. Sosial layihənin müəyyən edilməsi. Sosial layihənin quruluşu. Sosial layihənin büdcəsi. | Joseph W. Weiss, Robert K. Wysocki. Fəsil X |
| 13 | Kreativ layihələrin idarə edilməsi | Kreativ layihələrin idarə edilməsinin mahiyyəti və məzmunu. Kreativ layihələrin işlənib hazırlanması prosesləri. Kreativ layihələrin idarə edilməsinin əsas bölmələri. Kreativ layihələrin idarə edilməsinin əsas prinsipləri. Kreativ layihələrin idarə edilməsi strategiyası. Yüksək səviyyəli avtomatlaşdırılmış layihələndirmə sistemlərinin qurulması. Avtomatlaşdırılmış layihələndirmə proseslərinin kompüterlərin köməyi ilə həlli problemləri. Avtomatlaşdırılmış layihələndirmə sisteminin (ALS) hazırlanmasında məqsəd. ALS-in əsas xüsusiyyətləri. ALS-in uğurlu istismarı onun altsistemləri, alətləri və modulları səviyyəsində qurulma prinsiplərinin həyata keçirilməsi. Layihələndirmə prosesinin blok-sxemi. | Gerd Dithelm. Fəsil IV |
| 14 | İnnovasiya layihələrinin qiymətləndiri lməsi mexanizmi. | Layihələrin idarə edilməsində innovasiyaların təsnifatı. Layihələrin idarə edilməsində innovasiya proseslərinin əhəmiyyəti. İnnovasiya layihələrinin qiymətləndirilməsi üsulları. İnnovasiya layihələrində müqayisəli təhlilin aparılması istiqamətləri. Müasir biznes sistemində innovasiya layihələrinin iqtisadi səmərəlliliyinin artırılmasının təşkilati-iqtisadi amilləri. Müəssisə səviyyəsində innovasiya layihələrinin növləri. İnnovasiya fəaliyyəti investisiyalaşdırma obyekti kimi. İnnovasiya fəaliyyətində layihələrin və proqramların gəlirliyinin qiymətləndirilməsi. Layihələrin idarə edilməsində informasiya texnologiyaları. İnnovasiyaların işlənib hazırlanması və reallaş- | БЫКОВСКИЙ В. В. Fəsil II, fəsil IV |

| | | | |
|---|---|---|---|
| | | dırılması məsələsi. | |
| 15 | Layihə menecmentin də rəqabət və qiymətqoymanın iqtisadi əhəmiyyəti. | Layihələrin idarə edilməsində qiymətqoymanın mahiyyəti və məzmunu. Layihələrin idarə edilməsində qiymətqoymanın funksiyası. Layihələrin idarə edilməsində rəqabətin iqtisadi mahiyyəti və məzmunu. Layihələrin idarə edilməsində rəqabətin iqtisadi metodları. Layihələrin idarə edilməsində qiymətqoymanın məqsədi. Layihələrin idarə edilməsində qiymətqoyma siyasətinin əhəmiyyəti.Layihələrin idarə edilməsində qiymətqoyma metodları. Layihələrin idarə edilməsində rəqabət münasibətlərinin növləri. Layihələrin idarə edilməsində azad rəqabətin əsas əlamətləri. Layihələrin idarə edilməsində qeyri-azad rəqabətin əsas əlamətləri. | Gerd Dithelm. Fəsil IV |
| | Yekun imtahan | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

**XIII. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

**XIV. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır. Balların bölgüsü aşağıdakı kimidir:

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Mühazirə dərslərində iştirak fəallığına görə | 5 | 5 % |
| Seminar dərslərindəki cavablar və iştirak fəallığına görə | 15 | 15% |
| Aralıq imtahanı | 30 | 30% |
| Final imtahanı | 50 | 50 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə tələbənin bilik və bacarıqlarının attestasiyası bütünlüklə fənn üzrə 75 (yetmiş beş) sual üzərindən (hər mövzu üzrə 5 sual, keys və ya tapşırıq olmaqla) qiymətləndirilərək aparılır.

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər**

**toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahan yazılı formada keçiriləcəkdir. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə baglı tələbənin hər-hansı şikayəti olarsa, Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**İnternet resursları:**


1. https://proglib.io/p/free-manager-books/
2. https://www.amazon.com/Project-Management-Approach-Scheduling-Controlling/dp/1118022270
3. http://www.management.com.ua/books/view-books.php?id=873
4. https://may.alleng.org/d/manag/man098.htm
5. https://www.tstu.ru/book/elib/pdf/2011/bykovski.pdf
6. https://www.kimheldman.com
7. https://www.amazon.com/Project-Management-Managerial-Process-Clifford/dp/007123425X
8. https://www.audible.com/author/Stanley-E-Portny/B001IGNTLW
9. https://www.studmed.ru/joseph-w-weiss-robert-k-wysocki-5-stadiy-upravleniya-proektom_04c77cda8be.html


**Tərtib etdi:**  **i.ü.f.d., dosent Nəsibov Vüqar Nizami o**